*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 1* *ISSN 2663-4414*
*Səhifə: 50-56* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.1.50*

# İZZƏDDİN HƏSƏNOĞLU YARADICILIĞINDA ATƏŞ, GÜNƏŞ VƏ AY MOTİVLƏRİ

**Seyfəddin Altaylı**
Filologiya üzrə fəlsəfə doktoru
Bakı Avrasiya Universiteti. Azərbaycan.
E-mail: altayli_s@yahoo.com

**Xülasə.** Dünyanın ən qədim xalqlarından biri olan türklər tarixlə yaşıddır. Sarı Çayın döngəsindən Adriyatik dənizi, Qıpçap çöllərindən Avropaya, Atlantik okeanına kimi nəhəng coğrafiyada tarixin müxtəlif çağlarında böyüklü-kiçikli dövlətlər yaratmış, qonşuluqlarındakı mədəniyyətlərlə yanaşı olduqlarından, onlara təsir etmiş və təsirlənmişlər. Türklərin yaratdığı mədəni miras tarixləri cahanşümuldur. Tanrıçılıq inamını mənimsəmiş əski türklərin Atəşə, Günəşə və Aya olan yanaşmaları xüsusilə missionerlik anlayışından hərəkət edən türkoloqlar tərəfindən tamamilə fərqli bir anlayışla araşdırılaraq, həddən artıq səhv nəticələr çıxarılmışdır. Təəssüflər olsun ki, bəzi türk ziyalıları da həmin missionerlərin anlayışını doqma kimi götürüb eynilə təkrar etmiş və yeni nəsillərə türkün ruhuna və mədəniyyətinə yad olan səhv yanaşmaları təqdim etmişdir. Tanrıçılıq deyilən bu əski türk inamı tamamilə səmavi xarakterlidir, ancaq xüsusilə bəzi missioner araşdırmaçılar onu qərəzli şəkildə caduçu, əfsunkar xarakterli "Şamanizm" tərzində təqdim etmişdir.
Təqdim olunan məqalədə Həsənoğlu yaradıcılığında Atəş, Günəş və Ay motivləri barədə məlumat verilir.
**Açar sözlər:** Həsənoğlu, əski Türklər, Atəş, Günəş, Ay

**Məqalə tarixçəsi:** göndərilib – 19.04.2023; qəbul edilib – 04.05.2023

# FIRE, SUN AND MOON MOTIFS IN IZZADDIN HASANOGLU'S CREATIVITY

**Seyfaddin Altayli**
Doctor of Philosophy in Philology
Baku Euroasian University. Azerbaijan.
E-mail: altayli_s@yahoo.com

**Abstract.** Turks are one of the oldest peoples of the world. From the Yellow River to the Adriatic coasts, from the Desht-i Kipchak to Europe and the Atlantic Ocean, they established dominions in various periods of history, became acquainted with the cultures in these regions, influenced them and influenced from them. The cultural heritage they have brought to the throughout history is large and global. The ancient Turks have their own belief system called Goktanrı. However, this system has been dealt with in a totally different way by the Western scholars and people being under the influence of them (with the exception of certain precious scientists) have made great mistakes. This belief system, called Goktanrı is semitic, but it is presented by some Western scholars deliberately in the form of sorcerous and magical "Shamanism".
The presented article focuses on fire, sun and moon motifs in Hasanoglu's creativity.
**Keywords:** Həsənoglu, old Turks, Fire, Sun, Moon

**Article history:** received − 19.04.2023; accepted − 04.05.2023

## Giriş / *Introduction*

Atəş fars sözü olsa da, onun mənşəyi ilə bağlı bir çox əfsanə yaradılmışdır. Bəzi xalqlara görə, atəş ilah, ilahə və ya Tanrının qüdrətinin işarəsidir. Bəzi xalqların inamında atəş ilahlardan oğurlandığına görə, ruha malikdir. Bəzilərinə görə div, bəzilərinə görə isə hər hansı qəhrəmanın səyi ilə yerinə görə yerə endirilən məhv və ya xilasedici gücdür. Atəşin xüsusi qüdrət və gücə malik olduğuna inanan xalqlar isə hindlilər və farslardır (Tanyu , 1991, s. 52).

## Əsas hissə / *Main Part*

Əski Türklərin inamına görə, od Tanrı tərəfindən insanların istifadəsi üçün göydən endirildiyindən həm müqəddəsdir, həm də su kimi təmizləmə gücünə malikdir. Atəş də su kimi bəşəriyyətə Tanrının bir töhfəsi olaraq yollandığından, müqəddəs sayılmışdır.

Saxa Türklərinin mifik anlayışına görə, Ulu Toyon yeraltı dünyasının hakimi olub qamların və qarğaların atalarının hamisidir. Saxa türklərinin əfsanəsinə görə, insanlar istifadə etsin deyə odu göyün üçüncü təbəqəsindən "Ulu Toyon" yollamışdır (Harva , 2014, s. 213).

Bu inam göylə od arasında bir əlaqənin olduğuna işarə edir. Oğuz dünyaya gələrkən bir işığın yaranması, ovda ikən göydən enən işığın içində gördüyü qızla ailə qurması (Ögel , Türk Mitolojisi II cild, 2010, s. 117), əlbəttə, mifik ünsürdür, ancaq türklər bununla düzilqarlı insanlardakı təmizliyin Tanrının bir töhfəsi olduğuna işarə etməkdədir. Odun bir digər önəmli xüsusiyyəti şər ruhları da qovan bir varlıq olmasıdır (İnan, 1995, ss. 66-68). Novruzda ilaxır çərşənbədə tonqalın üstündən atılarkən "ağırlığım, uğurluğum bu tonqala tökülsün" (Nebiyev, 1997, s. 145),; (Seyidov , 1994, ss. 31, 41) deyilməsi, Anadoluda yaşayan əfşar türklərinin gəlinin ocağın ətrafında üç dəfə günəşin günbatana getdiyi istiqamətdə hərlədilməsindən sonra yeni evinə aparılması da həmin anlayışdan xəbər verməkdədir.

Altay türklərinin bir əfsanəsinə görə, ilk insanlar tərəvəz və meyvələrlə qidalandıqlarından oda ehtiyac duymurlarmış. Tanrı onlara ət yeməyi buyurduqda oda ehtiyac duyulub. Ülgən göydən biri qara, biri ağ iki daş gətirərək quru otları ovcunda əzib və daşlardan birinin üstünə qoyaraq digərilə vurub atəşi yandırıb (Harva , 2014, s. 184).

Əski türklərdə olduğu kimi, bu gün də Türk dünyasının hər küncündə od su ilə söndürülmür. Yunanlı Theophylaktos Simokattes, "Türklər oda fövqəladə şəkildə önəmlə yanaşır və hörmət göstərirlər", – demişdir (Roux, 2005, ss. 67,100).

Qədim vaxtlarda bir kəs cinayət işləsə, günahdan xilas olmaq üçün ya qam və ya ozana küllü miqdarda pul verər və ya maddi gücü olmasa iki od arasından keçməyi qəbul etmək məcburiyyətində idi (Carpini , 2018, ss. 39, 231).

Göytürklər zamanında – 568-ci ildə Zemarkhosun başçılıq etdiyi Bizans heyətinin əşyaları kətəv (sandal) ağaçlarından qalanan tonqalın oduna tutulmuş və dua oxunub silkələnərək təmizlənmiş, elçilik heyəti də qalanmış tonqalların arasından keçirilərək paklanmışdır (Gumilev , 1999, s. 128).

Əski Türklərin atəşə müqəddəs kimi baxmalarının digər bir səbəbi də onun Tanrının nurunu daşımasındadır.

Təsəvvüf anlayışında atəş eşqin istiliyi və alovudur. Eşq də ifrat məhəbbət anlamındadır. Sufilər Tanrıya platonik məhəbbətlə bağlıdılar, çünki onların eşqi həm real, həm də əlçatmaz ülvi məhəbbətdir (Erginli , 2006, ss. 129-135).

Atəşin lüğəti mənası "suzuxmaq", canı su istəməkdir. Onun üçüncü dərəcəsi isə bir müridin susuzluğunu aradan götürəcək bir şeyə olan arzusudur. Allah müqəddəs bir hədisdə "Mən gizli bir xəzinə idim, bilinməyi arzu etdiyimdən kainatı yaratdım", – demişdir. Ulu şairimiz Füzuli də "Eşq imiş hər nə var aləmdə / Elm bir qilü-qal imiş ancaq" (Füzuli, 2005, s. 354), – deyərək eşqin əsl mənasına toxunmuşdur. Bununla da eşq ilə atəşin bir-biri ilə rabitəli olduğu nəzərə çarpmaqdadır.

İzzəddin Həsənoğlu da həmin anlayışı "Kitabi-Sirətün-Nəbi" adlı məsnəvisində dilə gətirmişdir:

*"Dərdi-məndiñ sözləri dərtlü gərək*
*Eşq ilə söylənsə sözlər yigirək" 4730*

*"Qo bu qayğuyı yüri var siriti*
*Söyləgil eşq ilə eylə qeyrəti" 4734*

Şair birinci beytdə dərd əhlinin sözlərinin dərdli olmasını və sözlərin eşq ilə söylənməsinin daha yaxşı olacağını, ikinci beytdə isə qayğını burax və sirəti eşq ilə söylə deyir.

*"Hər kimüñ kim bağrı eşqdən yaşludur*
*Gözi yaşlu yürəgi atəşlüdür 5317*

*Qissəsi eşqiñ qılur cana əsər*
*Söyləgil aşiqlərə eşqdən xəbər 5318*

*Söylə eşqüñ sözini kim xub olur*
*Hər köñüldə can kibi mehbub olur" 5319*

Sufi şairimiz Həsənoğlu bu beytlərdə bağrı eşq ilə dolu olan kəsin gözlərinin daim yaşlı və ürəyinin atəşli olduğunu, Hz. Məhəmmədə yazdığı qissənin cana təsir etdiyini, bu səbəblə aşiqlərə eşqdən danışmağın yaxşı olacağını, çünki eşq sözünün gözəl və hər könüldə də can kimi sevgili olduğunu vurğulayır.

Xristian orieantalistlərdə olduğu kimi, bütpərəst çinlilər də türklərin oda bəslədikləri hörməti sitayiş, tapınma kimi göstərmişlər. Çinli keşiş Huan Tsang VII əsrdə səyahət etdiyi Göytürk ölkəsində onların oda tapındığını yazmışdır.

Türklər qədim çağlardan ocağa və oda Tanrının nurunu yaydığına görə, müqəddəs nəzərilə baxmış və onun canı olduğuna inanmışlar. Tanrıçılıq inamında odun və ocağın əcdadları təmsil etdiyinə inanılmışdır (Radloff, W. Sibiryadan, 1956, ss. 15, 19-20).

Azərbaycanda **ağzından od-alov püskürtmək (tökülmək, yağdırmaq, yağmaq)**, **ağzından od çıxmaq (tökülmək)**, **gözündən od tökülmək (yağmaq) səni od aparsın, od aparmış, ağzından alov çıxmaq, başına od qalanmaq, gözündən od tökülmək (yağmaq), başından duman (tüstü) çıxmaq (qalxmaq)** kimi (Altaylı, 2005, ss. 40, 99, 262) deyimlər həmin inamdan xəbər verir.

Əski türklər dünyada görülən hər bir şeyin bir sahibi, yiyəsi olduğuna inanmışlar. Əski türk inamına görə, Tanrı kainatı yaradarkən dağlara, oda, suya, meşəyə və s. nəzarət edən iyələr yaratmış və onların idarəsini onlara tapşırmışdır. İzzəddin Həsənoğlu da yazdığı məsnəvisində həmin anlayışı vurğulamışdır:

*"Ol oda hökm[ü] eyləyən pəs söylədi*
*Ya* ***Resulullah*** *buyurursan dedi 2598*

*Buyurayım oda yaqsun bunları*
*Xanümanı birlə bu azğunları 2599*

*Yirü-yerdə eyü bir xu*[1] *avratı-ər*
*Şöyle yaqsun qalmasun hərgiz əsər" 2600*

Atəşin, odun motiv kimi işlənməsinə Həsənoğlunun əsərində bir çox yerdə rast gəlmək olur:

[1] Xu(y) *is. Far.* Təbiət, xarakter, yaradılış, xasiyyət.

*"Cebrail gögdən yerə indi həmin*
*Bir əlində hərbə dutar atəşin"   6380*

*"Toz yarıldı çıqdı bir ər na-gihan*
*Atəş-i suzanə bəñzər pəhlüvan"   9174*

*Sıçradı kafir sağından bir dilir*
*Atəşi-suzan bigi bir nərrə-şir"   9776*

Yuxarıdakı beytlərdə Cəbrailin əlindəki nizənin atəş saçdığını, ikinci beytdə yaxıb-yandırıcı bir atəşə bənzər igidin nagihan çıxdığını, üçüncü beytdə isə kafir ordusunun sağından yandırıcı atəşə oxşar bir aslan igidin çıxdığını vurğulamışdır.

Əski türklərdə günəş anlayışına gəldikdə onun yeri olduqca fərqlidir, çünki türklər günəşə daim ön planda yer vermişdir. Hunlar dövründə həm günəşə, həm də aya xüsusi qurbanlar təqdim edilmişdir. Günəş gündoğanın simvolu olmuş və o çıxmağa başladığı zaman türklər üç kərə yerə diz vuraraq ona salam vermişdir (Ögel, 2010, s. 187).

Altay türklərinin inamına görə, yerdə yaşayan "Suyla" adlı bir iyə vardır. Onun at gözünə oxşayan gözləri otuz günlük məsafədəki varlıqları belə görə biləcək qüdrətə malikdir. Özü də ay ilə günəşin qırıntılarından yaradılmışdır. Həmin iyə bir qamın Tanrının hüzuruna yüksəlmə mərasimində yuxarılara çıxarkən onu şər qüvvələrin hücumundan qoruyur, qam da "Yayıq" adlı iyənin də köməyi ilə Tanrı qatına yüksələ bilir (İnan, 1995, s. 34). Digər tərəfdən, günəş Altay türklərinə görə, istiliyin simvoludur. Saxa türkləri yaz gəldikdə günəş bayramı keçirirlər və bu bayram doqquz gün çəkir. Bayram günlərində Tanrıya dua və günəş üçün nəzir təqdim edirlər. Gənclər bir-biri ilə bir məsələ haqqında and içərkən "günəş bizi görür" deyirlər (Ögel , 2010, s. 191). Qazax qadınları da Novruz bayramında gün çıxdığında əyilib onu salamlayırlar (Çoruhlu, 2002, s. 23); (Kıyak, 2010, s. 138).

Altay türklərində gəlin yeni evinə, yəni qaynatasının yurduna daxil olduqdan sonra gəlib ocağın qarşısında yerə kimi əyilir, qaynatası və ya qohumlarından biri gəlib gəlinə alqış deyir:

*Tanrının gözləri sənə baxsın*
*Qocaların duası səni qorusun.*
*Ulu Tanrının gözləri üstündədir.*
*……..*
*Önündə daim ay işıldasın*
*Arxanda hər zaman günəş parıldasın.*
(Radloff, W. Sibiryadan, 1956, s. 326)

Günəşə əski türklərdə hörmətlə yanaşılması, əslində, mifik inamla bağlıdır. Əfsanəvi xaqan Oğuzun işığın içində görüb evləndiyi birinci həyat yoldaşından olan oğlunun adı "Gün Xan"dır. İstanbulda Topqapı Sarayındakı kitabxanada olan Oğuznamədə "Gündoğan tərəfdə, gen yerdən çıxan Oğuz" [15, s.193], – deyə sözə başlanmışdır.

Həsənoğlu da yazdığı məsnəvisində bir çox yerdə günəşlə bağlı ifadələr işlətmişdir:

*"Qara toza bulaşıb qan buxarı*
*Günəş yüzini örtdi yir ğubarı"   10511*

*"Şah-ı Mərdan didi şir-i nər bənəm*
*Kim günəşdən dünyada əzhər bənəm" 10795*

*"Adımı ṣormaq nə hacətdir bənüm*
*Kim günəşdən rövşən-əzhər bənəm"  10802*

*"Əbu Süfyan baqıb cün anı gördi*
*Ki bir yüzi günəş* ***Sultan****ı gördi" 11894*

Günəş kimi Ay da türk mədəniyyətində xüsusi yerə malik olduğuna görə, onun qoruyucu, hami vəsfinə inanılmışdır.

Saxa türkləri arasında bir vaxtlar anası ölmüş öksüz bir qız çətin vəziyyətdə yaşayırmış. Bir gün üz tutub aya yalvarıb və ondan kömək istəyib. Qız qışda soyuq bir gecə suya gedərkən, Ay dünyaya enərək qızı alıb aparıb. Bu səbəblə qız bədrlənmiş ay zamanı çiynindəki zolanın uclarında iki vedrə daşıyan halda görünməyə başlayıb. Qızın ayda iki uşağı olub. Bu səbəblə Saxa Elində yaşayan türklər həmin qızın ziyanı dəyər deyə, gecə vaxtı qızlarının Aya baxmasına icazə verməzlər (Ögel , 2010, s. 197).

Özgə bir Altay nağılında bir qız anbarda yeddibaşlı yetmiş yeddi Yelbegeni/Celbegen (div) bağlı tuturmuş. Əri ambarın qapısını açdıqda Yelbegenlərdən altısını öldürür, birini buraxır və ona deyir ki, "Çıx biraz dolan". O vaxtlar qız uşaqlarının əlləri ilə ay işarəsi eləməsi qadağan imiş. Uşaq oyun oynayarkən bədrlənmiş ayı görür və əli ilə ay işarəsi etdikdə yeddibaşlı Yelbegen enib uşağı götürüb aya aparır. Ay haçan ki, bədrlənmiş şəklə bürünür, onda o qız görünərmiş [4, s.557].

Altay türklərinin özgə bir nağılında "Yelbegen" adlı bir div vardır. Bu div insanları tutub yeyirmiş. Tanrı da onu öldürməyi fikirləşib və bu işi Günəşə tapşırdıqda Günəş "Mən atəşimlə onu öldürə bilərəm, ancaq insanları da külə döndərərəm", – demişdir. Ay isə üzünü tutub Tanrıya "Mənim soyuğuma insanlar dözə bilərlər, ancaq divi öldürə bilərəm", – demiş və böyürtkən kolunun meyvəsini yeyən divi tutub koluyla birlikdə göyün üzünə aparmışdır (Ögel , 2010, s. 198).

Altay türklərinə görə, Ay tutulduğu zaman onu Yelbegenin yediyinə inanır və "Aydı Yelbegen yedi", bəzən də "Ay Pırgan boldı" (ay Burkan, Budda oldu) deyirlər (Radloff, 1956, s. 199).

Türklərdə ay eyni zamanda gözəllik timsalıdır. Asiyanın şimal hissəsində yaşayan türk xalqlarının dastanlarında "günəş gözlü, ay ağızlı" ifadələri işlədilir. "Qutadqu Bilig"də də ayla bağlı ifadələr yer tutmuşdur. "Qutadqu Bilig"də, "Ay yir kök idisi halayık bile/Yerin-göyün yaradılmış olanların" deyərək, – Tanrının bütün yaradılmışlarla birlikdə ayın və yerin iyəsi/sahibi olduğu dilə gətirilmişdir (8, MM/3). Altay türklərinin qamlarının dini rituallarda istifadə etdiyi bədrlənmiş aya oxşayan gümüşdən güzgüləri, Saxa oyoonlarının (qam) da libaslarında aya oxşar halqalar vardır.

İzzəddin Həsənoğlu da "Kitabi-Sirətün-Nəbi" adlı məsnəvisində ay motivindən bir çox yerdə istifadə etmişdir.

*"Nə su gördüm nə ağrıyu təh*[2] *xod qan*
*Haman bir ay kibi toğdı oğlan" 264*

*"Ay alnı nuri rövşəndür, günəşdir*
*Əcəb yüzi mahi-taban mudur ki" 459*

*"Ay mıdır bu, gün midir, ya nur midir*
*Yaxud cənnətdən mi gəldi huri midir" 931*

*"Ol* ***Xədicə*** *şandı ay gəldi ivə*
*Yaxud günəş nuridur toldı ivə" 1182*

*"Durdılar pəs cümlə amam*[3] ***Nəbî***
***Mustafā*** *ortalarında ay kibi" 1751*

Yuxarıda təqdim olunan beytlərdə Hz. Məhəmmədin dünyaya gələrkən ay kimi işıq yayaraq hər yeri işıqlandırdığını, alnının ay kimi, üzünün də bədrlənmiş aya bənzədiyini, onun aymı, yoxsa

[2] Təh *is. Far.* Əsas, özül.
[3] Amam *is. Ar.* Əmilər.

günmü və ya nurmu olduğu haqda anasının qərara yetişə bilmədiyini, Hz. Xədicənin də Hz. Məhəmmədin yaraşıqlı siması qarşısında çaş-baş qaldığını və evinə ayın gəldiyini sandığını, əmilərinin arasında onun ay kimi görsəndiyini qeyd etmişdir.

Bütün bunlar türklərin atəş, günəş və ayla bağlı düşüncələrinin kökündə dayanan mifik inam və anlayışdan xəbər verir. Həmin inam və anlayış bu günün özündə də bütün türk xalqlarında yaşadılmaqdadır.

## Nəticə / *Conclusion*

Nəticə olaraq, əski Türklər yalnız hər bir şeyi yaradan Ulu Tanrıya pərəstiş etmiş, Atəş, Günəş və Ay kimi olan varlıqlarla bağlı öz anlayışlarını dastanlarında, əfsanələrində və nağıllarında dilə gətirmişlər.

Xristian şərqşünaslar türklərin iyə anlayışını manipulyasiya edərək, iyələri Tanrı kimi qələmə vermişlər. Acınacaqlı tərəfi isə müəyyən türk araşdırmaçıların da xristian şərqşünasların yazdıqlarını doqma kimi qəbul etməsi və onların fikirlərini düz kimi qəbul etməsidir. Bütün bunlar öz mifologiyamızın kamil mənada başa düşülməməsindən və ya müəyyən əllərin bu araşdırmaçıları yönləndirdiyindən eyhamla da olsa, xəbər verir ki, bu da təəssüf yaradır.

## Ədəbiyyat / *References*

Altaylı, S. (2005). *Azerbaycan Türkçesi Deyimler Sözlüğü.* Ankara: Prestij Yayınları.
Carpini , P. (2018). *Moğol Tarihi ve Seyahatname.* Trabzon : Derya Kitapevi .
Çoruhlu, Y. (2002). *Türk Mitolojisinin Anahatları.* İstanbul: Kabalcı Yayınları .
Erginli , Z. (2006). *Metinlerle Tasavvuf Terimleri Sözlüğü* . İstanbul: Kalem Yayınevi.
Füzuli, M. (2005). *Əsərləri (altı cilddə).* Bakı: Şərq-Qərb.
Gumilev , L. (1999). *Eski Türkler* . İstanbul : Birleşik Yayıncılık.
Harva , U. (2014). *Altay Panteonu* . İstanbul: Doğu Kütüphanesi.
İnan, A. (1995). *Tarihte ve Bugün Şamanizm.* Ankara: TTK Yayınları .
Kıyak, A. (2010). İslamiyetten Önce Türklerde Güneş ve Ay İle İlgili İnanışlar. *Karadeniz-Black Sea.*
Nebiyev, A. (1997). *Azerbaycanda Nevruz* . Ankara: Kültür Bakanlığı Yayınları.
Ögel , B. (2010). *Türk Mitolojisi II cild.* Ankara: TTK Yayınları.
Ögel, B. (2010). *Türk Mitolojisi I cild.* Ankara:: TTK Yayınları.
Radloff, W. S. (1956). *W.Radloff. (Dörd cilddə) I/2.* İstanbul: Maarif Basımevi.
Radloff, W. Sibiryadan. (1956). *W.Radloff. (Dörd cilddə)* . İstanbul: Maarif Basımevi.
Roux, J. (2005). *Orta Asyada Kutsal Bitkiler ve Hayvanlar.* İstanbul: Kabalcı Yayınları.
Seyidov , M. (1994). *Yaz Bayramı* . Bakı: Yazıçı.
Tanyu , H. (1991). *“Ateş” maddesi / H.Tanyu. TDV İslam Ansiklopedisi* . Ankara : TDV Yayınları.

# МОТИВЫ ОГНЯ, СОЛНЦА И ЛУНЫ У ТЮРКСКИХ НАРОДОВ И У И.ГАСАНОГЛУ

**Сейфеддин Алтайлы**
Доктор философии по филологии
Бакинский евразийский университет. Азербайджан.
E-mail: altayli_s@yahoo.com

**Резюме.** Тюрки один из самых древних народов в истории. В различные исторические этапы создаваемые ими большие и малые государства составляли огромное географическое пространство от изгибов Жёлтого моря до Адриатического, Кыпчакских степей до Европы и Атлантического океана, и влияли на культуру близлежащих соседей или пользовались их культурой. Всемирная история созданного тюрками культурного наследия велика. Древние тюрки поклонялись Огню, Солнцу и Луне, присущие божеству Танры. Особенно в результате сопоставления утверждений тюркологов, выступающих с миссионерских позиций, относительно верований древних тюрков в Огонь, Солнце и Луну с другими совершенно различными понятиями были сделаны крайне ошибочные выводы. К сожалению, даже некоторые турецкие интеллигенты приняли за истину миссионерское понимание, повторяя его как есть, тем самым представив новому поколению в ошибочном виде тюркскую культуру, совершенно чуждую тюркскому духу.

Это древнее верование в божество, именуемое Танры, носит совершенно космический характер, но некоторые, особенно исследователи-миссионеры, представляют его в тенденциозном мистическом виде колдовства как шаманизм. В представленной статье было проделано исследование мотивов Огня, Солнца и Луны в творчестве И.Гасаноглу.

**Ключевые слова:** Гасаноглу, древние тюрки, Огонь, Солнце, Луна